# Avrupa birliyi və tűrkiyə
# آورؤپا بیرلی‌یی وه تۆرکیه

űçűn bir NATO duvarı yaratmaq idi. Qərbililər Tűrkiyəni özləri ilə bərabər huquqlu və aynı səviyədə görseydilər, 70 -ci ilərdə Avrupa ortaq bazarı yaradılarkən onların ən eski ortağı olan Tűrkiyənidə bu birliyə alınardılar. həta ilk başdada olmasaydı sonraki illərdə bunu həyata keçirərdilər. çűnkű Ispaniya və Potaqal kimi ölkələrin iqtisadi durumları Avrupa birliyinə alındıqda elədə xoş durumda deyildi. Haman illərdə yaxud sonraki illərdə Tűrkiyə'nin bu bazara girməsi doğal(təbii) sayıla bilərdi. Amma realliqda Tűrkiyəni bu bazarda istəyən yoxudu. hətta dűşűnűlməsi belə onlari disginirirdi. Tűrkiyə tərəfində bələ bir istək ortaya atıldıqda ona çeşidli bahanalar gətirilməyə başlandı. Iran deyilən yardə Amrikanin Soviyetlərin gűneyində « Göy Qurşaq » yartma siyasətinə göre şahlıq rejiminin Xumeyni rejimi ilə dəyişdirilməsi . bűtűn islam dűnyasında bu rejimin fanatik təsiri təbii olaraq qərbililərin əllərinə yeni bir bahana vermiş oldu. Ikinci dűnya savaşından sonra Tűrkiyə qərb dövlətləri ilə birgə NATO'da olub və qəbi Soviyet genişləməsinə əngəl olmuş olsada, ona ikinci səviyəli baxılmışdır. Dəmir duvar yıxıldıqdan sonra bu özűnű dahada açıqcasına gösterməyə başladı. Isalm ölkəsi olan parçalanmış Albaniyanın birləşməsinə icazə verilmədi. keçmişdə şərqi avrupaya mənsub olan Bulqarıstan və Rumanı kimi dalı qalmış ölkələrin Avrupa birliyinə alınması planlaşdırıldı. 50- illik ortaqları olan Tűrkiyə kənara qoyuddu. tikrar çeşitli bahanalar gətirilməyə başlandı. Hətta Məsihiyyətlə - Islamiyyət arasında min illər boyu olan sűrtűşmə özűnű açıq göstermaye başladı. Avrupa dövlət başçılarından bəziləri bunu açıqca dilədə gətirdilər. Yəni Avrupanın məsihi və Tűrkiyənin Műsəlman olduğunu vuquladılar. və onun bu bazara girməsinin imkansız olduğunu bildirdilər. Təsűflə Tűrkiyə dövləti və bəzi dayirələr buna israr etməkdədirlər. Təhqir edici şəkildə onlarin bu istəkləri hər dəfə rəd edilməkdədir.

Açıqca deyilirsə Soviyet imperiyası yıxıldıqdan sonra Tűrkiyə'y' ehtiyac yoxdur. Şərqi avrupa ölkələri bugűn tərcih edilməkdədirlər. Avrupanın Tűrkiyə'yə qarşı siyasəti bəllidir. onlar Tűrkiyəni öz aralarında görmək istəmirlər. Tűrkiyəliləri űrəyini qırmamaq űçűn yalnız sözdə Tűrkiyənin Avrupa birliyinə qatılmasını dilə gətirsələrdə. Bunun nə zəman olacağını demirlər.

Tűrkiyə'yə gəldikdə belə bir sual ortaya çıxır: Tűrkiyənin bu israri, hətta NATO'da qalması dűzgűndűrmű? bunun cəvabı çeşidli ola bilər. Amma hər halukarda Tűrkiyə Avrupa ölkəsi deyildir. Orta şərqə ayid bir ölkədir. Bunagörədə iqtisadi, siyasi həmdə öz əsgəri ortaqlarını öz məntəqəsidə axtarması, Tűrkiyənin uzun vədəli çıxarları baxımından haha əlverişli ola bilər. və Tűrkiyənin Avrupanın iqtisadi. siyasi və əsgəri bağlısızlığınıda qarantı altına almış olar. Bu Avrupadan sözűn tam mənasında űz çevirmək deyildir. Tűrkiyə Avrupanın elmi mərkəzləri ilə, sənaye birlikləri ilə öz əmkdaşlığını dəvam etdirə bilər. bizə görə belə bir műstəqil siyasət ikinci dərəcəli Avrupa vətəndaşı olmaqdan min qat daha yaxşıdır.

# قۆندارما« ائرمنیستان »ائلچی‌لیيی قارشي‌سیندا
# Qondarma«Ermənistan»elçiliyi qarşısinda

دردی نئجه؟ خۆجالي دا مینلرجه سۆیداشیمیزین تئرۆرچۆ ائرمنیلرین ایره نج اللری ایله قانا بلشمه سی کیمین دردیدیر؟ ایسلام داشینی دۆشلرینه وۆران ایران ایسلام جیمهۆریسی نین ، یاخۆد عرب اۆلکه لری نینمی؟ بلکه دئمۆکراسییا ، قلۆباللاشما ، باریش، بشر حاقلارینا احترام، تئرۆریزمی اوزده محکۆم ائده ن ، هۆمانیستلیک شعارلاري ایله میللتلری تاراج ائده ن غربلی‌لرین‌می؟ یۆخسا اۆزونو دینی تعصوبلرده ن آزاد گۆستره ن، دونیا میللتلری نین قئیدینه قالماق ایسته ین آمئریکالیلارین‌مي؟

یۆخ عزیزلر! یۆخ اي اۆلۆ تورکون بالالاري! بۆ یارا نه تورک دونیاسي نین ، نه تورکییه نین ، نه ایسلامچي اۆلکه‌لرین وه نه‌ده غربیلی‌لرین دردیدیر. بۆ یارا یالنیز آذربایجان تورکلری‌نین یاراسیدیر. بۆنۆ تاریخ گۆستردی و یئنه گۆستره جکدیر. بۆندان آرتیق خۆش گۆرولویه یۆل وئرمک اۆلماز. قاراباغ اۆنۆن سئوداسینی چه‌کن ، اۆزونه وطن سایان، یۆرد سانان آذربایجان تورکلری‌نین یاراسیدیر. قاراباغ کئچیجی چیرکین ایستکلرده ن آزاد اۆلمۆش، پۆلا، شهرته، مقاما آلدانمایان میللتچی آذربایجان تورکلری‌نین دردیدیر.

بۆنۆ آچیقجا دئمک اۆلارکی، قاراباغ یاراسي هئچ آذربایجان دۆولتی نینده دردی دئییل، آذربایجان ایقتیدار وه مۆخالیفتی‌نین بئله دردی دئییلدیر. قاراباغ ، اۆنۆ یالنیز الده ن گئتمیش گۆزه ل بیر وارلیق کیمی سئوه نلرین دردیدیر. اۆ کورسویه چاتماق اوچون قاراباغي آغیزلاریندا چئینیینلرین دردی اۆلا بیلمه ز، وه اۆلمیاجاقدیر. قاراباغ فاجیعه سی نه‌دن یاراندي، وه نییه هله‌ده چۆزولمه ییبدیر؟ بۆنۆن اوچون باشقا سببلرین یانیندا ان باشدا گه لنی میللتیمیزین ( میللتچی لیک دالقاسي بوتون دونیاني گۆتوردویو زاماندا) هله اۆزونو میللت کیمی تانیماماسي، اۆنۆدقان ، باریشچي ، دۆزوملو وه اۆزگه سئوه رلی‌یینی‌ده سایماق اۆلار. بیر اوزوموزه وۆرۆلان سیللی لرین آغریسین ، آنجاق اۆ بیری سۆراتیمیزین اۆپولدویونه قده ر دۆیۆرۆق. هله نه یاخشي کی، بۆ فاجیعه نیده اۆنۆدمامیشیق. هله نه یاخشي کی، آجیسین چکمه سکده هئچ اۆلمازسا دیلده دئییریک.: اۆرۆمییه ، خۆي ، وه سلماسدا فاجیعه لر اۆلۆبدۆر. آخي بیر میللت نه قده ر اۆنۆدقان اۆلا بیله ر؟ آخي بیر میللت نه قده ر باریشچي اۆلا بیله ر، گۆره سن؟ بیر میللت ، بلکه ده سهو ائدیره م ، میللت یۆخ بیر کوتله نه‌قده ر دۆزوملو اۆلا بیله ر؟

تاریخ بۆیۆ بوتون دونیاني سیلکه له ییب اۆز ایراده سی آلتینا گتیره‌ن ده‌لی قانلي تورکلرین بالالاري بیزلر کیمی اۆلار؟ یۆخ بیز چۆخدان اۆزوموزده ن چیخمیشیق. بیزی بۆ حالا سالانلار یاخشي باجارمیشلار. یئتمه‌زمی بۆ قده‌ر اۆزگه اۆلماق؟ یئتمه‌زمی بۆ قده‌ر بۆیۆن ایمک؟ یئتمه‌زمی بۆ قده‌ر ال آچماق؟

قاراباغ فاجیعه سی بیزیم یالنیز اۆز یارامیزدیر. باشقالاري چۆخ بۆیوک ایش گۆرسه لر ، گلیب باش ساغالیغي وئره بیلیرلر. بۆ یارانین ساغالماسي اوچون هئچ بیر اۆزگه حکیمه گره‌ک یۆخدۆر. اۆنۆ یالنیز وه یالنیز اۆزوموز ساغالداجاییق. سئوگی وه نیفرتیمیزله. بیرلی ییمیزله، غرۆرۆمۆزلا، ایرده میزله ، اۆز گوجوموزله.... سۆن زامانلار بیز سئومه ییده، نیفرت ائتمه ییده اۆنۆتمۆشۆق. غرۆرۆمۆزۆ اۆنۆدان کیمی .

بۆگون ائله بۆنا گۆره ده بیر یئره گلدیک. گلدیک، بیر داها سئوگیمیز اۆغرۆندا آند ایچک. گلدیک، بیر داها اولکولریمیز اۆغرۆندا قانیمیزلا ـ جانیمیزلا ، اۆلماغیمیزلا آند ایچک. گلمیشیک دئیه‌ک کی، اي تورکلره اۆزونو بۆیوک قارداش سانان تورکییه! وه یا اوزده سئکۆلئر ، لاییک دئمۆکرات وه هۆمانیست غربیلی لر! قاراباغ یالنیز بیزیم اۆز دردیمیزدیر. اۆنۆ اۆزوموز ساغالداجاییق. داها بۆندان آرتیق بۆ حاقدا کیمسه‌دن یاردیم دیله‌میه‌جیییک. سۆن داملا قانیمیزاده‌ک بوتون حاقلاریمیزین اۆغرۆندا ، تۆپراقلاریمیزین اۆغرۆندا مۆباریزه آپاراجاییق. بۆنا آند ایچیریک. بۆ تاریخین بیزه وئردیيی میللی وه اینساني وظیفه دیر. باش ایریک بۆ بۆرجا.

بۆ میتینگ ده مۆختلیف دیللرده یا قاراباغ ، یااۆلوم! ، باشقا یۆل یۆخ آرتیق!. قاراباغ بیزیمدیر ، بیزیم اۆلاجاق! کیمی شعارلار وئریلیبدیر. حاقلي اۆلاراق قاتیل جینایتکار کۆچاریانین محکمه‌یه وئریلمه‌سیده طلب ائدیلمیشدیر. بیزده بۆنۆ دستکله‌ییریک.

# مادرید تئرورو
# Mdrid teroru

اوچ ایل قاباق آمئریکادا ۱۱ ـ سئپتامبردا تئرۆر فاجیعه سینده ن سۆنرا آمئریکانین بۆش حاکمییتی نئجه دییه رلر تئرۆریزمی یۆخ ائتمک اوچون اۆرتا شرقه دۆغرۆ خاچ ساواشیینا قالخماسي عملده تئرۆریزمین یۆخ ائدیلمه سینه یۆخ، عکسینه تئرۆریزمین آرتماسینا سبب اۆلمۆشدۆر. حتا آورۆپانین گلیشمیش اۆلکه لرینده ده اینسانلارین اۆزۆن ایللرین الده ائتدیکلری آزادلیق کیمی نائلیيتلری نین قیسیتلانماسینا گتیریب چیخارتمیشدیر. دۆلت بۆدجه لری نین بۆیوک بیر حیصه سیده امنیتی قۆرۆماق اوچون صرف ائدیلمه یه باشلانمیشدیر. بوتون بۆ تدبیرلر تئرۆریزمین قارشي سیني آلماغا قادیر اۆلمامیش ، اۆلاجاغینادا شوبهه ایله یاناشماق لازیمدیر. بۆنۆ بیز هرگون عراقدا ، فلسطینده ، ایسراعیلده شاهید اۆلدۆغۆمۆز کیمی مئرج آیي نین ۱۱ـ ده چۆخ تاسوفله ایسپانییانین مادرید شهرینده ده شاهید اۆلدۆق. ایسپانییا دونیانین گلیشمیش اۆلکه لرینده ن بیری اۆلدۆغۆ حالدا بۆ اۆلکه نین حاکمییتی بۆ فاجیعه دن شخصي چیخارلاري اوچون یارارلانماغا چالیشاراق، بۆ تئرۆرۆ باسک میللتی نین اۆز گله جه یینی تعیین ائتمه سی یۆلۆندا مۆجادیله وئره ن ائتا تشکیلاتینا مال ائتمه یه چالیشدي. بیر صۆرتده کی هنۆز کیمین بۆ تئرۆرا ال آتدیغي بللی دئییل ایدی. ایسپانیا حۆکۆمت باشچیسي اسنا جنابلاري دۆوروندا قدغن ائدیله ن باسک میللتی نین فیرقه سی نین نۆماینده لری بۆنۆ یالانلایاراق ، ائتا تشکیلاتي ایله بۆ تئرۆرۆن علاقه سی اۆلمادیغیني بیلدیردیلر. بوتون بۆنلارا باخمییاراق ایسپانییا کیمی متمدن غرب اۆلکه سی نین حۆکۆمت باشچیسي

آردي ۴. نجو صحیفه ده